# 2022-2023-cü il

# QƏBUL İMTAHANI

TÜRKİYE DİYANET VAKFI
BAKÜ TÜRK LİSESİ

**SİNİF** 5

**VARİANT** A

AD, SOYAD:

ATA ADI:

İŞ NÖMRƏSİ:

1. Cavab kartında kodlaşdırma edən zaman mütləq **qara** və ya **tünd göy** rəngdə yazan *(mürəkkəb axıtmayan, diyircəkli)* **qələm istifadə edilməlidir**.

2. Cavab kartında **ad**, **soyad**, **müraciət(iş) nömrəsi**, **sinif**, **qrup** (*tələb edilən siniflər üçün*) məlumatlarını və sizə təqdim ediləcək kitabçanın **variantını** kodlaşdırmağı ***UNUTMAYIN***.
   - *Kodlaşdırma prosesində xəta baş verdikdə mütləq nəzarətçiyə müraciət edib, yardım istəyin. Əks halda cavab kartınız yararsız hala düşə və əlavə vaxt itkisi yaşaya bilərsiniz.*
   - *Qeyd edilmiş hissələr kodlaşdırılmadıqda və ya əksik kodlaşdırıldığı zaman nəticələriniz* ***HESABLANMAYACAQDIR***.

3. Cavab kartındakı ***boş sahələrdə***, eləcədə ***kənar xəttin*** üzərində müxtəlif tipli qaralamalar və əlavə qeydlər etmək **olmaz**.

4. İmtahanı bitirdikdən və ya imtahan üçün təyin edilmiş müddət bitdikdən sonra ***sual kitabçası*** və ***cavab kartı*** nəzarətçiyə təhvil verilməlidir.

5. Qapalı tipli test tapşırıqlarında edilmiş **4 səhv** cavab **1 doğru** (***1*** *səhv cavab* ***0,25*** ***doğru***) cavabın balına təsir edir.

6. İmtahan prosesi zamanı **QADAĞANDIR**: (*Belə hallar aşkar olunarsa, həmin şagirdlər imtahandan xaric oluna bilər.*)
   - İmtahana ***mobil telefon*** və ***digər rabitə vasitələri, kalkulyator*** və ***digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası, xarici yaddaş qurğuları*** və ***başqa yardımçı vasitələr*** gətirmək, onlardan istifadə etmək;
   - ***Nizam-intizam qaydalarını*** pozmaq, ***zalda yerini dəyişmək, gəzişmək*** və bu kimi ***digər hallarda imtahana mane*** olmaq;
   - Başqasının cavab kartı və kitabçasına ***baxmaq*** və ya öz cavab kartı və kitabçasına başqasının baxması üçün ***şərait yaratmaq***;
   - Nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün və bu kimi digər məsələlərlə bağlı müraciət etmək;

## Açıq tipli test tapşırıqlarının doğru kodlaşdırma üsulları

---

*Cavablar soldan sağa doğru qaralanmalıdır. Məsələn sualın cavab "34"- olarsa*




*Seçim və xronoloji ardıcıllıq tipli suallarda "vergül" dairəsi əsla qaralanmamalıdır. Məsələn sualın cavabı 1,3,5- olarsa*




*Bir sütunda sadəcə 1 dairə qaralana bilər. Məsələn sualın cavabı 27-olarsa*



## AZƏRBAYCAN DİLİ

**1.** Hansı birləşmələrin asılı tərəfinin son samiti tələffüz zamanı öz qarşılığına keçir?

*a. böyük sözü* — *ç. əmlak ortağı*
*b. sevinc gözyaşı* — *d. vərəq paylamaq*
*c. qoçaq oğlan* — *e. kobud davranış*

A) a,b,c B) a,b,d C) a,c,ç,d
D) b,ç,d,e E) b,d,e

**2.** Hecalara bölünmə baxımından uyğunluq **pozulmuşdur:**

● ***qayınana*** → *qa-yın-a-na*
◊ ***əsəbiləşdirmək*** → *ə-səb-i-ləş-dir-mək*
○ ***narazılığımız*** → *na-ra-zı-lı-ğı-mız*
Δ ***fəaliyyət*** → *fə-al-iy-yət*
× ***sürpriz*** → *sür-priz*

A) × Δ B) × ◊ C) ● ○ D) ● ◊ E) ◊ Δ

**3.** "G*izlətmir*" sözünün tərkibinə görə təhlil sxeminə uyğun gələn sözü tapın.

A) çoxdankıdır
B) yoxlatdıq
C) gözlətdik
D) dinləyicilər
E) uyğunsuzdur

**4.** Cümlələrdən birində sifət öz sualına cavab **vermir:**

A) Qoca bağban ətrafındakı ağaclara nəzər yetirdi.
B) Düşmən geri çəkilir, məğlubiyyəti qəbul edirdi.
C) Qardaş ölkə böyük sıxıntılardan sonra yenidən dirçəldi.
D) Xoş niyyət çirkini də gözəlləşdirər.
E) Ən böyük biclik düzlükdür.

**5.** Hansı sözdən sonuncu şəkilçini çıxarsaq, sözün başlanğıc forması alınar?

A) yəhərlənmişdir B) dincəldik
C) üzləşdim D) kimyəvi
E) qanadlandı

**6.** Omonim sözlərdən neçəsinin məna tayları eyni nitq hissəsinə aiddir?

*dən kök qitə surət say bəstə vergi keçirmək*

A) 3 B) 2 C) 4 D) 5 E) 6

**7.** Frazeoloji birləşmələrin qarşılıqları hansı variantda düzgün verilmişdir?

1 • aman verməmək
2 • get-gələ salmaq
3 • gözünün odunu almaq

A) **1**- süründürmək; **2**- incitmək; **3**- mürgüləmək
B) **1**- rəhm etmək; **2**- çox işlətmək; **3**- qorxutmaq
C) **1**- incitmək; **2**- süründürmək **3**- qorxutmaq
D) **1**- yazığı gəlmək; **2**- incitmək; **3**- gözlərini yummaq
E) **1**- bezdirmək; **2**- yormaq; **3**- hirsi başına vurmaq

**8.** Hansı sözün izahı **verilməmişdir**?

*- qorxu hissi doğuran, zəhmli, vahiməli*
*- dolanbac və dolaşıq yolları olan tikili*
*- xasiyyət, adət, vərdiş*
*- iki və ya daha çox tərəfin razılığı ilə bağlanmış saziş, razılaşma*

A) şakər B) müqavilə C) heybətli
D) eksponat E) labirint

**9.** Hansı cümlədə sifətin azaltma dərəcəsinə aid nümunə verilmişdir?

A) Xarıbülbülün ləçəklərinin başında "bülbül" pərvazlanır və onun çiynində xırdaca qoşa ləçək olur.
B) Xəstə çox az yemək yeyirdi.
C) İnsan gərək açıqfikirli olsun.
D) Ağaclar ala-bula rəng alırdı.
E) Mavi səmada ağımtıl buludlar hərəkət edirdi.

**10.** Feillərdən biri feildən **düzəlməmişdir**:

A) qanatmaq B) rənglənmək
C) başlamaq D) sıxılmaq E) salamlaşmaq

**11.** Altından xətt çəkilmiş hansı şəkilçilərin tələffüzü eynidir?

*Yazda bağ***lar**[1] *gözəl ətir saçır, quş***lar**[2] *səhər tezdən axşama qədər cəh-cəh vurur.*
*Ayını tüfəng***lə**[3] *vuran kəndli sözün***dən**[4] *dönmədi.*
*Məktəb***dən**[5] *çıxanda bizi də göz***lə**[6].

A) 1,2 B) 4,5 C) 3,4 D) 3,6 E) 3,5

**12.** Hansı cümlələrdə əvvəldə işlənən söz cümlənin ortasında və sonunda işlənsə, ilk hərfi kiçik yazılar?

1. *Kamal xəzinəsi insan övladının bizə qoyduğu ən zəngin xəzinədir.*
2. *Vüsal çayın qırağındakı təpədə yoldaşları ilə oynayırdı.*
3. *Azərbaycanlı tələbə yarışda daha çox xal topladı.*
4. *Araz dayazdır, daşlı yerləri çoxdur.*

A) 1,3 B) 1,2 C) 3,4 D) 2,4 E) 2,3

**13.** Sözlərin tələffüzü ilə bağlı uyğunluğu müəyyən edin.

*1. Saiti səhv verilən sözdür.*
*2. Samiti səhv verilən sözdür.*

*a. [məxfi]* *b. [əjdəha]* *c. [kölgəyə]*
*d. [gümbəz]* *e. [bumeranq]*

A) 1-b; 2-a,d B) 1-c,d; 2-a C) 1-c; 2-d,e
D) 1-a,c; 2-b E) 1-b,c; 2-a,e

**14.** Atalar sözlərində nöqtələrin yerinə müvafiq şəkilçiləri əlavə etməklə ismin hallarını ardıcıllıqla müəyyən edin.

***a. Ağız ... çıxan baş ... dəyər.***
***b. Çoban ... könlü olsa, təkə ... pendir tutar.***
***c. Söz var, dağ ... çıxardar, söz var, dağ ... endirər.***

A) *a → yönlük, çıxışlıq*
*b → yerlik, yiyəlik*
*c → yönlük, yönlük*

B) *a → çıxışlıq, yönlük*
*b → yiyəlik, çıxışlıq*
*c → yönlük, çıxışlıq*

C) *a → çıxışlıq, yönlük*
*b → yiyəlik, yönlük*
*c → çıxışlıq, çıxışlıq*

D) *a → yönlük, yönlük*
*b → yiyəlik, yerlik*
*c → yerlik, çıxışlıq*

E) *a → çıxışlıq, çıxışlıq*
*b → yiyəlik, yerlik*
*c → yönlük, çıxışlıq*

**15.** Hansı sıradakı sözlərin yeri dəyişdirilsə, cədvəldəki **uyğunsuzluq** aradan qalxar?

| | o | a |
|---|---|---|
| 1 | *ap*strof* | *p*nsion* |
| 2 | *fil*rmoniya* | *dikt*fon* |
| 3 | *k*mpot* | *ped*qogika* |
| 4 | *s*movar* | *şif*ner* |
| 5 | *eksk*vator* | *bl*knot* |

A) 1,4 B) 1,3,5 C) 3,4 D) 2,4,5 E) 1,2,3

**16.** Qarşılığı **səhv** verilmiş köhnəlmiş söz hansı variantdadır?

A) pitik → yazı
B) əsrük → sərxoş
C) arı → təmiz
D) danla → sabah
E) mərə → azğın

**17.** Hansı cümlədə keçmiş zamanda olan feil işlənib?

A) Dünyanın bir çox heyvanxanalarında fili nümayiş etdirirlər.
B) Şiddətli yağış odu söndürdükdə onlar od ala bilirdilər.
C) Mən arabir quş yuvası axtarmağa gedərdim.
D) Bakıda bu vaxtlar əncir və ağ şanı bol olarmış.
E) Zurnaçını toya, mollanı yasa çağırdılar.

**18.** Doğru fikirləri müəyyən edin.

*Son hecası daha qüvvətli deyilir:* → *1. nərə*, *2. tennis*, *3. dünənki*

*İlk hecası daha qüvvətli deyilir:* → *4. varis*, *5. daim*

A) 2,4 B) 1,3,5 C) 1,4,5 D) 3,4 E) 1,2,4

**19.** Hansı sözlər eyniköklüdür?

*1. yaralı* *2. yarılmaq* *3. yarırlar*
*4. yarğanotu* *5. yaralanmaq* *6. yararsız*

A) 2,4,6 B) 2,3,5 C) 1,3,5 D) 3,4,6 E) 1,2,5

**20.** **Uyğunsuzluğu** müəyyən edin.

| | **söz** | **sinonimi** | **antonimi** |
|---|---|---|---|
| A) | *azadlıq* | *müstəqillik* | *asılı* |
| B) | *varlı* | *dövlətli* | *yoxsul* |
| C) | *etibarlı* | *sədaqətli* | *vəfasız* |
| D) | *işıq* | *nur* | *zülmət* |
| E) | *qalib* | *müzəffər* | *məğlub* |

***Mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 21-25 saylı tapşırıqları yerinə yetirin.***

Rəvayətə görə, bir padşah dikbaş bir sərkərdəsini öldürməyə bəhanə axtarırmış.

Bir gün sərkərdənin qan aldırmaq fikrində olduğundan **...** padşah bu işlə məşğul olan təbibi yanına çağırıb[1], ona gen – bol xələt və ənam verəndən sonra tapşırır ki, sərkərdə damardan qan aldırmağa gələndə[2] zəhərli neştərdən yararlansın.

Qibleyi – aləm necə buyurmuşdusa, təbib elə də edir və qəhrəman sərkərdəni bu yolla o biri dünyaya yollayır. Zəhərli neştəri təmizləmədən digər alətlər arasına qoyan təbib bu əməlini də, aləti[3] də unudur.

Bir neçə gün sonra həkimin öz venasından qan almaq lazım olanda o, köməkçisinə göstəriş verir ki, gərəkli prosesi icra eləsin. Neştərin zəhərli olduğundan

yerli–dibli xəbərsiz olan təbib köməkçisi bütün proseduru lazım olan tərzdə həyata keçirsə də, həkim dünyasını dəyişir[4], çünki eyni neştərlə bir neçə gün öncə o, padşahın oyununa[5] gələrək **günahsız** sərkərdənin qatilinə çevrilmişdi.

**21.** Mətndə nöqtələrin yerinə uyğun gələn ifadəni müəyyən edin.
A) günahını yuyan B) qanı qaralan
C) duyuq düşən D) hirsi soyuyan
E) dünyadan əlini üzən

**22.** Hansı atalar sözü mətndəki əsas fikirlə səsləşir?
A) Kimə yaxşılıq elədin, özünü ondan qoru.
B) Xəstəyə naz eləmək həkimə yaraşmaz.
C) Dilini saxlayan salamat olar.
D) Zərərin yarısından qayıtmaq özü də mənfəətdir.
E) Nə əkərsən, onu biçərsən.

**23.** Mətndə nədən söhbət **getmir**?
A) təbib köməkçisinin hökmdardan çoxlu xələt və ənam almasından
B) təbibin zəhərli neştərlə qan almasından
C) zəhərli neştərin təmizlənmədən digər alətlər arasına qoyulmasından
D) padşahın sərkərdəni öldürmək üçün bəhanə axtarmasından
E) həkimin köməkçiyə göstəriş verməsindən

**24.** Üzərində rəqəm yazılmış sözlərdən məcazi mənada olanlarını müəyyən edin.
A) 1,2 B) 4,5 C) 1,3,5 D) 2,4 E) 1,2,3

**25.** Cümlələrin birində mətndə altından xətt çəkilmiş sözün sinonimi işlədilmişdir:
A) Firidun yorğun halda Musa kişinin qarşısında dayandı.
B) Həkim hamını ümidsiz vəziyyətdə qoyub getdi.
C) Naəlac qalan çiçəklər üzlərini limon ağaclarına tutdu.
D) O soyuq fevral gecəsində nə qədər məsum körpənin, qadının, qocanın həyatına son qoyuldu.
E) Bir məmləkətdə xeyirxah və ədalətli hökmdar var idi.



## İNGİLİS DİLİ

**26.** Choose the line of ***ordinal*** numerals.
A) ninety, eighteen, fourty B) tenth, forth, eighth
C) fourth, twelfth, ninth D) sixteenth, third, oneth
E) ninetieth, eighteen, second

**27.** Choose the correct variant.
A) There aren't much salt in this meal.
B) Peace and progress are uncountable nouns.
C) Is Akif and his brother ready for this test?
D) Teymur and I was late for work yesterday but we are on time today.
E) There is a few sheep and a cow in the field.

**28.** Choose the correct variant.
*They don't have … in this city.*
*1. some traffic 2. a good time 3. no strong winds*
*4. any work 5. much sunshine*
A) 1,4,5 B) 2,4,5 C) 2,3,5 D) 3,4,5 E) 1,3,4

**29.** Choose the correct pronouns to the underlined words.
*<u>My uncle's</u> wife always puts <u>2 slices of lemon</u> into <u>her tea</u>.*
A) His, its, it B) She, they, it
C) His, them, it D) She, it, its
E) Her, it, it

**30.** Choose the correct variant.
*What …. in this bag? …. very hard to carry it.*
A) is there / It is B) is it / There is
C) there is / It is D) it is / It is
E) is there / There is

**31.** Choose the correct sentence with the ***modal verb***.
A) May I riding your bike now?
B) This chair is uncomfortable. It may hurts you.
C) The baby's nanny can to cook tasty porridge.
D) I can listen to this song every day.
E) The tester may dangerous. Don't take it.

**32.** Choose the correct ***general question***.
A) Does your friend interested in science?
B) They need to decorate the house, don't they?
C) Do you do housework every day or twice a week?
D) Where do you usually spend your holidays?
E) Are these students often late for school?

**33.** Choose the correct variant.
*Her son was back from the battle … a cold day … December.*
A) in , at B) - , in C) on , in D) at, on E) on, on

**34.** Choose the correct sentence with ***the tense form(s)***.
A) Every morning I am making my bed and clean my room.
B) My brother doesn't grow flowers and plants, but today he helps father in the garden.
C) My sister usually chews gum, but now she is hating it.
D) The women peel potatoes and prepare dinner at present.
E) Come here. We are picking the flowers. They smell nice.

**35.** Choose the correct variant.
*- …………. ?*
*- Yes, she does.*
A) Does your niece married?
B) Does Aysu got 2 children?
C) Does the poetess write poems for children?
D) Does your sister or mother speak Italian?
E) Does the prince invite many guests?

**36.** Choose the correct ***Imperative*** sentences.
*1. Osman, to go to the bank now.*
*2. Please, make your bed before going to school.*
*3. People don't always tell the truth.*
*4. My son, doesn't jump the queue. It is impolite.*
*5. Don't be back home late, Turan.*
A) 2,5 B) 1,2,4 C) 2,4,5 D) 3,5 E) 1,3,4

**37.** Choose the correct variant.
A) – Have your neighbour's daughters got curly hair? – Yes, they have.
B) – Have those geese got eggs? – Yes, they have got.
C) – Do those young artists have got a show today? – No, they don't.
D) – Does plane trees have fruit? – No, it doesn't.
E) – Does that house have a garage? – No, it hasn't.

**38.** Choose the correct variant.
*Raul is never afraid of difficult questions, …. ?*
A) isn't he B) is Raul C) does he
D) aren't they E) is he

**39.** Choose the correct articles.
*…Babayevs sometimes have … dinner in our restaurant near … Maiden Tower.*
A) The , - , the B) - , a , the C) The , a , the
D) The , - , - E) - , - , the

**40.** Choose the correct sentence in ***the Possessive Case***.
A) My sister's and brother's job is very interesting.
B) Those reptiles' tail is very long.
C) Mr. Safarovs' unusual device is fantastic.
D) Let's speak about today's problems.
E) The author's very intelligent.

**41.** Choose the **incorrect** variant.
*There is …. on the plate.*
*1. a tasty soup 2. a piece of cheese 3. some rice*
*4. no an apple 5. a few slices of meat*
A) 1,3,5 B) 1,2,3 C) 1,2,4 D) 2,4,5 E) 1,4,5

**42.** Put question to the underlined words.
*My brother keeps his clothes clean.*
A) Whose clothes does my brother keep clean?
B) Which clothes does my brother keep clean?
C) What does my brother keep clean?
D) What my brother keeps clean?
E) What does keep my brother clean?

**43.** Choose the **incorrect** variant.
A) There are no swine on this farm.
B) There are our sheep in the stable.
C) There are vegetable soup in the pot.
D) There is a pillow, a blanket and some towels on the bed.
E) There is a fireworks show on the boulevard.

**44.** Choose the correct variant.
*- … you … to have some olives?*
*- No, I ….. them.*
A) Are, wanting / dislike B) Do, want / am disliking
C) Do, wanting / dislike D) Do , want / dislike
E) Are , want / am dislike

**45.** Choose the correct variant.
*This famous female composer … in Baku 4 years ago. Now ..... here again.*
A) was, he is B) was, she is C) is, she is
D) were, he was E) was, she was

**46.** Choose the correct sentence with ***the adverb of frequency***.
A) I usually don't celebrate holidays at home.
B) Saleh always is excited before contests.
C) Our teacher every day gives us much homework.
D) Sometimes we go sightseeing with our grandparents.
E) My plants once a week need water.

**47.** Choose the correct sentence with ***the quantifier***.
A) Mother grates few white cheese for the salad.
B) There are much picnic rugs in this shop.
C) Would you like any dark chocolate?
D) We have a lot of rain in our city in winter.
E) Leyla can't help some people from this country.

**Read the passage and answer questions 48-50.**

Hello, my name is Aylin. I have two brothers, Telman and Teymur. They are twins (əkiz). They both have blond hair and brown eyes. They always wear jeans and T-shirts.

They like listening to music and playing football and chess. They go to a football match every Saturday. In the evenings they play computer games, but sometimes my parents don't let them because they have a lot of homework. Teymur is hard- working, but Telman is lazy (tənbəl).

Our parents are always at work on weekdays. We usually stay at home alone during the day. It's fun, but I am sometimes angry because my twin brothers are naughty and make a lot of noise. I love them very much. I am lucky to have twin brothers.

**48.** What is the passage about?
A) Lazy brothers
B) Aylin's brothers
C) Aylin's weekdays
D) The twins' clothes
E) The twins' football matches

**49.** Which question **has an answer** in the passage?
A) How long do they play computer games?
B) How old are twin brothers?
C) What is Aylin's father?
D) What colour are the brothers' eyes?
E) Where do their parents work?

**50.** Choose the synonym to the word *"to be fond of"*.
A) to be angry
B) to like
C) to let
D) to wear
E) to play



## RİYAZİYYAT

**51.** 2897 ədədində 8 rəqəminin mərtəbə vahidi ilə mərtəbə qiymətinin cəmini tapın.
A) 100
B) 800
C) 8
D) 900
E) 808

**52.** a-nın hansı natural qiymətlərində $\frac{7}{a+3}$ kəsri düzgün olmayan kəsrdir?
A) {0,1,2,3,4}
B) {1,2,3,4}
C) {1,2,3,4,5}
D) {0,1,2,3}
E) {1,2,3}

**53.** Desimetrlə ifadə edin:
***35,08 m + 56,4 dm + 267,8 sm + 1345 mm***
A) 4088,128 dm
B) 1704,28 dm
C) 49,378 dm
D) 408,25 dm
E) 447,43 dm

**54.** Hovuzdakı suyun əvvəlcə 40%-i, sonra qalan suyun 20%-i işləndi və hovuzda 240 litr su qaldı. Hovuzda əvvəlcə nə qədər su vardı?

A) 300 litr B) 500 litr C) 750 litr
D) 640 litr E) 480 litr

**55.** $x + 4 < 13$ şərtini ödəyən x natural ədədi verilib. y ədədi A(7) nöqtəsindən 4 vahid məsafədədir. x+y cəminin ən böyük qiymətini tapın.

A) 20 B) 12 C) 19 D) 11 E) 16

**56.** Düz xətt üzərində 13 nöqtə qeyd olunubsa, neçə şüa alınar?

A) 13 B) 12 C) 78 D) 26 E) 28

**57.** Düzbucaqlının eni x sm olub uzunluğundan 3 dm qısadır. Düzbucaqlının sahəsi neçə kvadrat santimetrdir? (*x ilə ifadə edin*)

A) x(x+3) B) x(x-3) C) $x^2+3$
D) x(x+30) E) x(x-30)

**58.** Üçbucağın tərəflərindən biri 5,2 sm, ikinci tərəfi 3,6 sm-dir. Üçüncü tərəfin ala biləcəyi ən kiçik və ən böyük natural qiymətlərin cəmini tapın.

A) 10 B) 8 C) 9 D) 7 E) 11

**59.** Aşağıdakı rum rəqəmləri ilə yazılışlardan neçəsi doğru deyil?

*1) XXXV* *2) CCCCX* *3) IIX*
*4) MDXXL* *5) DCCLVI*

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**60.** Düzbucaqlının eni uzunluğunun $\frac{3}{5}$-dən 7 sm qısadır. Düzbucaqlının perimetri 82 sm olarsa, sahəsi neçə kvadrat santimetrdir?

A) 276 $sm^2$ B) 330 $sm^2$ C) 448 $sm^2$
D) 604 $sm^2$ E) 270 $sm^2$

**61.** $\overline{75a9b3}$ ədədində a+b=12. Bu ədədi on minliklərə qədər yuvarlaqlaşdırdıqda alınan ədədin 75 on minliyi var. ***ab*** hasilinin ən böyük qiymətini tapın.

A) 45 B) 81 C) 36 D) 27 E) 32

**62.** Aşağıdakı hansı təkliflər həmişə doğrudur?

*1. Bucağın tərəfləri şüadır.*
*2. İki iti bucağın cəmi kor bucaqdır.*
*3. Düz bucaq açıq bucağın yarısıdır.*
*4. Bir nöqtədən sonsuz sayda düz xətt keçirmək olar.*
*5. Bir iti ,bir kor bucağın cəmi həmişə açıq bucaqdır.*

A) 1,2,3 B) 1,3,4 C) 1,3,5
D) 1,3,4,5 E) 3,4,5

**63.** Uzunluğu 15 m, eni 9 m olan otağın döşəməsinə hər tərəfdən 4 m yer boş qalmaqla palaz salınmışdır. Palazın sahəsi neçə kvadrat metrdir?

A) 55 $m^2$ B) 7 $m^2$ C) 99 $m^2$
D) 75 $m^2$ E) 135 $m^2$

**64.** Bərabərsizliyin natural həllərinin cəmini tapın.

$$1\frac{3}{13} < \frac{16}{x-2} < 2\frac{2}{7}$$

A) 36 B) 60 C) 50 D) 46 E) 55

**65.** AC parçası CD parçasından 8 dəfə uzundur. B nöqtəsi AD-nin orta nöqtəsi olarsa, BA:AD=?




A) 2 B) 4 C) 3 D) 0,5 E) 4,5

**66.** $17 < 4x + 3 < 24$ şərtini ödəyən və onluq işarələrinin sayı 2-ni aşmayan ən böyük və ən kiçik onluq kəsrlərin cəmini tapın.

A) 8,84 B) 8,7 C) 8,75
D) 8,8 E) 8,74

**67.** Yan səthinin sahəsi 576 $sm^2$ olan kubun bir tilinin uzunluğunu tapın.

A) 96 sm B) 144 sm C) 12 sm
D) 36 sm E) 24 sm

**68.** Tənliyi həll edin:

$$(4x + 5{,}6) - (3\frac{2}{5} + 4\frac{3}{10}) = 12{,}8$$

A) 30,75 B) 0,3725 C) 3,725
D) 3 E) 37,25

**69.** Qarğıdalının 0,16 hissəsi, günəbaxanın 0,36 hissəsi yağdır. 72 kq qarğıdalıda olan qədər yağ almaq üçün nə qədər günəbaxan götürmək lazımdır?

A) 3,2 kq B) 64 kq C) 32 kq D) 160 kq E) 36 kq

**70.** Üçbucağın perimetri $15\frac{8}{13}$ sm, birinci və ikinci tərəflərinin cəmi $10\frac{1}{13}$ sm, ikinci və üçüncü tərəflərinin cəmi $12\frac{2}{13}$ sm olarsa, ikinci tərəfin uzunluğunu tapın.

A) $6\frac{8}{13}$ sm B) $7\frac{8}{13}$ sm C) $2\frac{3}{13}$ sm
D) $5\frac{7}{13}$ sm E) $7\frac{7}{13}$ sm

**71.** Düzbucaqlı paralelepipedin eni 4 sm, uzunluğu 6 sm, tam səthinin sahəsi 148 $sm^2$-dir. Paralelepipedin hündürlüyü neçə sm-dir?

A) 3 B) 8 C) 5 D) 4 E) 6

**72.** Eni 0,4 km, uzunluğu isə bundan 5 dəfə böyük olan düzbucaqlı şəkilli torpaq sahəsindən buğda yığdılar. Hər hektardan 25 s buğda yığıldı. 1 kq buğdadan 0,4 kq un alınarsa, bütün yığılan buğdadan neçə ton un alınar?

**73.** Kater axın ilə 8 saata 264 km yol getdi. Çayın sürəti 5,42 km/saat olarsa, katerin axına qarşı sürətini tapın. (*km/saat ilə*)

**74.** Bir şəhərdən eyni zamanda eyni istiqamətdə minik və yük avtomobili yola düşdü. Minik avtomobilinin sürəti 109,3 km/saat, yük avtomobilinin sürəti isə 75,9 km/saat olarsa, 6,5 saatdan sonra avtomobillər arasındakı məsafəni tapın.(*km ilə*)
(*cavabı təkliklərə qədər yuvarlaqlaşdırın*)

**75.** Uyğunluğu müəyyən edin.

***1. Hasildə vuruqlardan birinin vergülünü 3 rəqəm sola, digərinin vergülünü 2 rəqəm sağa sürüşdürsək***

***2. Hasildə vuruqlardan birinin vergülünü 3 rəqəm sola sürüşdürsək, digərini 0,25-ə bölsək***

***3. Hasildə vuruqlardan birinin vergülünü 3 rəqəm sağa sürüşdürsək, digərini 8-ə bölsək***

a. 10 dəfə artar
b. 250 dəfə azalar
c. 125 dəfə artar
d. 125 dəfə azalar
e. 10 dəfə azalar

## TARİX

**76.** Hadisə — nəticə əlaqələrinin doğru verildiyi cavabı müəyyən edin:

| Hadisə | Nəticə |
|---|---|
| *1. Ərəb xilafətinin zəifləməsi* | *Azərbaycanda dövlətçilik ənənələrinin dirçəlməsi* |
| *2. Sasanilərin Azərbaycanın cənub torpaqlarına hücumu* | *Atropatena dövlətinin daxili müstəqilliyini saxlaması* |
| *3. Dəmirin kəşf edilməsi* | *İlk metal əmək alətlərinin hazırlanması* |
| *4. İranzunun Manna vilayətlərini birləşdirməsi* | *Mannada mərkəzi hakimiyyətin möhkəmlənməsi* |

A) 1,4 B) 2,3 C) 1,2 D) 3,4 E) 1,3

**77.** Xəritədə ştirxlərlə (*çizgilərlə*) göstərilmiş ərazidə baş vermiş və Azərbaycanın Orta əsrlər dövrünə aid olan hadisələri müəyyən edin.




*1. İlk Azərbaycan dövlətinin yaranması*
*2. Şuşa qalasının Qarabağ xanlığının mərkəzinə çevrilməsi*
*3. Atabəy Eldəniz tərəfindən yeni dövlətin yaradılması*
*4. Slavyan ( rus ) işğalçı tayfalarının hücumuna məruz qalması*
*5. Kiş alban məbədinin inşa edilməsi*

A) 1,3 B) 2,4 C) 3,4 D) 2,5 E) 1,5

**78.** Həm Azərbaycan SSR-yə həm də Azərbaycan Respublikasına rəhbərlik etmiş görkəmli dövlət xadimi:

A) Heydər Əliyev B) İlham Əliyev
C) Nəriman Nərimanov D) Fətəli xan Xoyski
E) Məhəmməd Əmin Rəsulzadə

**79.** *– Baharlı dövləti də adlanırdı*
*– Mərdəkan və Gülüstan qalaları inşa edilmişdir*
*– Osmanlı hökmdarı II Mehmetlə danışıqlar aparmışdı*
*– Çar Rusiyasının işğalçı siyasətinə qarşı mübarizə aparmışdı*
Yuxarıda haqqında məlumat **<u>verilməyən</u>** dövləti müəyyən edin.
A) Ağqoyunlu B) Şirvanşahlar C) Səfəvi
D) Eldənizlər E) Qaraqoyunlu

**80.** 2016-cı il Aprel döyüşləri nəticəsində erməni işğalından azad edilmiş ərazilərimizdəndir:
A) Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi
B) Lələtəpə yüksəkliyi və ətraf ərazilər
C) tarixi Azərbaycan şəhəri olan İrəvan
D) Azərbaycanın Araz çayından cənubda yerləşən bütün şəhərləri
E) Şərur rayonunun Günnüt kəndi

**81.** Azərbaycanda ibtidai insanların həyat tərzinə aid **<u>olmayan</u>** ifadə hansı cavab bəndində verilib?
A) daşdan əmək alətlərinin hazırlanması
B) ox və kamandan istifadə edilməsi
C) əkinçiliyin və maldarlığın yaranması
D) dini ayinlərin yerinə yetirilməsi
E) ticarətdə puldan geniş şəkildə istifadə edilməsi

**82.** İkinci Dünya müharibəsi dövrü ilə bağlı verilmiş sxemə aid doğru cavabı müəyyən edin.




A) faşist işğalında olan ərazilərin azad edilməsi uğrunda mübarizə aparılması
B) Həzi Aslanovun Stalinqrad döyüşündə qəhrəmanlıq göstərməsi
C) İsrafil Məmmədovun hərəkatın fəal üzvlərindən biri olması
D) əsasən Sovet İttifaqına qarşı fəaliyyət göstərməsi
E) xüsusi fərqlənənlərə Milli Qəhrəman adının verilməsi



**83.** Azərbaycan torpaqlarının Sasani hakimiyyəti altında olduğu dövrdə:
A) Ərəb—Sasani müharibələri başladı
B) Azərbaycanın cənub torpaqlarında islam dini yarandı
C) Cavanşir Sasanilərə qarşı mübarizə aparmaq üçün Bizansla ittifaq qurdu
D) Bəzz qalası xürrəmilər hərəkatının əsas mərkəzinə çevrildi
E) Arazdan şimaldakı Azərbaycan torpaqlarında yeni bir dövlətin əsası qoyuldu

**84.** Sxemə uyğun cavabı müəyyən edin.




*a. Qacarlar dövlətinin Naxçıvan və İrəvanı Rusiya işğalından azad etmək istəməsi*
*b. Gülüstan sülh müqaviləsinin imzalanması*
*c. Ərdəbilin rus qoşunları tərəfindən tutulması*
*d. Rusiyanın Azərbaycan torpaqlarını işğal etməsi*
A) 1b,2d B) 1a,2d C) 1d,2b D) 1d,2c E) 1b,2c

**85.** 20-ci əsrin 70-ci illəri Azərbaycan SSR-nin tarixinə aiddir:
A) Sovet hakimiyyətinin görkəmli ziyalılarımıza qarşı kütləvi qırğınlar törətməsi
B) Heydər Əliyevin rəhbərliyi ilə idarə olunması
C) Yusif Məmmədəliyevin rəhbərliyi ilə alimlərimiz təyyarə benizini almağın yeni üsullarını tapdılar
D) Rusiyanın tərkibinə daxil edilməsi
E) Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi

**86.** ***"Savaşmaq istəyirsənsə, savaşaq. Hədə-qorxu gəlirsən ki, təklifini qəbul etməsəm, bəlaya düçar olacağam. Əslində, bədbəxtliyin səni Peterburqdan sürükləyib bura gətirib".***
Verilən mətn hansı hökmdarın kimə müraciətindən götürülmüşdür?
A) Nadir xanın I Pyotra
B) Cavad xanın Rusiya çarına
C) Şəki xanının gürcü çarına
D) Hacı Çələbinin işğalçılara
E) Gəncə xanının Rusiya generalına

**87.** Şirvanşahlar dövlətinə aiddir:
A) ilk döyüşlərinin Səfəvilərlə olması
B) qədim dövrdən bəri ipək ticarətində önəmli rol oynaması
C) Dərbəndin tutularaq liman-şəhərə çevrilməsi
D) Xudafərin körpüsünün salınması
E) qoşunlarının Gülüstan qalasında qızılbaşlar tərəfindən mühasirəyə alınması

**88.** Həsən padşahın fəaliyyəti ilə bağlı cədvəldə boşluqları doğru tamamlayan cavabı müəyyən edin.

| *Ağqoyunlu dövləti* | |
|---|---|
| ***Məqsədlər*** | ***Tədbirlər*** |
| *Mərkəzləşdirilmiş dövlət yaratmaq →* | 1. ............... |
| *Əhalinin vəziyyətini yaxşılaşdırmaq→* | 2. ................ |

*a. Əhalidən vergi toplanmasının nizama salınması*
*b. Osmanlı dövlətindən odlu silah almağa cəhd edilməsi*
*c. Ölkədə islahatların həyata keçirilməsi*
*d. Ticarətin inkişafı üçün ölkədə ipəkçilik təsərrüfatının əsasının qoyulması*
A) 1a,2b B) 1a,2d C) 1b,2c D) 1c,2a E) 1c,2d

**89.** Eramızdan əvvəl 1-ci minilliyin ikinci yarısında baş vermişdir:
*1. Farsların Azərbaycan torpaqlarına ilk işğalçı yürüşləri*
*2. Xristianlığın Albaniyada rəsmi din elan edilməsi*
*3. Azərbaycanın şimal torpaqlarının Roma hücumuna məruz qalması*
*4. İzirtunun paytaxt şəhər olması*
*5. Atropatın ölkə ərazisində yadelli ağalığına son qoyması*
A) 2,4,5 B) 3,5 C) 1,4 D) 1,2,3 E) 4,5

**90.** Sxemə əsasən doğru cavabı müəyyən edin.

| ***Şimali Azərbaycan mədəniyyəti çar Rusiyası dövründə*** | | |
|---|---|---|
| **?** | *Milli mətbuatın əsasının qoyulması* | *N. Nərimanov tərəfindən Bakıda kitabxana açılması* |

A) Üzeyir Hacıbəylinin "Azərbaycan" adlı rəsmi dövlət qəzetini nəşr etdirməsi
B) Konservatoriyanın fəaliyyətə başlaması
C) dram əsərlərinin yazılması və səhnələşdirilməsi
D) "Koroğlu" operasının tamaşaya qoyulması
E) ilk yeni tipli ali məktəbin açılması



**91.** Azərbaycana yürüş edən fars, gürcü və rus qoşunlarına aid oxşarlıqdır:
A) xanlıqlarımızı süquta uğratmaları
B) bütün Azərbaycan torpaqlarını ələ keçirmələri
C) yerli xalqa qarşı daima yaxşı münasibət göstərmələri
D) işğalçı ordu kimi məğlub edilmələri
E) ilk hücumlarını eramızdan əvvəl həyata keçirmələri

**92.** Qarabağ xanlığını ( 1 ) və İrəvan xanlığını ( 2 ) Eyler-Venn diaqramına uyğun olaraq müqayisə edin.




*a. Əsasının Cavanşir tayfasının nümayəndəsi tərəfindən qoyulması*
*b. 18-ci əsrin əvvəllərində yaranması*
*c. Osmanlı ilə həmsərhəd olması*
*d. Şimal xanlıqlarımızdan olması*
A) 1a, 2c, 3d B) 1cd, 2a, 3b C) 1b, 2cd, 3a
D) 1c, 2a, 3b E) 1ad, 2b, 3c

**93.** Uyğunluq **<u>pozulmuşdur</u>:**
A) Arazdan şimaldakı torpaqlarda yaranan ilk Azərbaycan dövləti idi –Albaniya
B) ilk Azərbaycan respublikası idi –Azərbaycan Xalq Cümhuriyyəti
C) ilk müstəqil xanlığımız idi –Şəki xanlığı
D) Şamaxı ilk dəfə paytaxtı olmuşdu—Şirvanşahlar dövlətinin
E) Azərbaycan dilini ilk dəfə ünsiyyət vasitəsinə çevirmişdi—Səfəvi dövləti

**94.** Xürrəmilər hərəkatı yönəlmişdi:
A) Sasani dövlətinə qarşı
B) islam dininə qarşı
C) Ərəb xilafətinə qarşı
D) əsasən yerli əyanların xəyanətinə qarşı
E) Azərbaycanın şimal torpaqlarını işğal etmək istəyən yadellilərə qarşı

**95.** Təbriz şəhəri paytaxtı olmuşdur:
A) Rəvvadilər dövlətinin
B) Atropatena dövlətinin
C) Albaniya dövlətinin
D) Manna dövlətinin
E) Əfşarlar dövlətinin

**96.** Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olmuş şəhərləri müasir Azərbaycan xəritəsində müəyyən edin.




A) 1,2 B) 1,3 C) 2,5 D) 3,5 E) 1,4

**97.** Səfəvilər dövlətinə aiddir:

*1. Azərbaycanın cənub torpaqlarında yaranması*
*2. Nadir şahın hakimiyyət dövründə daha da güclənməsi*
*3. Bağdad və Kərbəlanı bir müddət tərkibinə qatması*
*4. Şərqdə Şeybanilər dövləti ilə həmsərhəd olması*
*5. Ərdəbilin paytaxt şəhər olması*

**98.** Azərbaycan Xalq Cümhuriyyətinə aid hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:

*1. İlk hökumətin yaranması*
*2. Üç rəngli bayrağın Dövlət bayrağı olaraq qəbul edilməsi*
*3. Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsinin bağlanması*

**99.** Klasteri tamamlayan cavabı müəyyən edin

Azərbaycan Respublikası 1990-cı illərdə — "Bəyannamə" qəbul edilməsi / ______ / ______ / ______

*1. Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Şəhidlər xiyabanında abidə ucaldılması*
*2. Mübariz İbrahimova Milli Qəhrəman adının verilməsi*
*3. Dünya Azərbaycanlılarının birinci qurultayının keçirilməsi*
*4. Türk-islam dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsi*
*5. 15 iyunun tariximizə Qurtuluş günü kimi daxil olması*

**100.** Uyğunluğu müəyyən edin

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

| ***1. 21-ci əsrin ilk onilliyi*** | ***2. 21-ci əsrin ikinci onilliyi*** |
|---|---|
| *a. Fəaliyyətinin əsas istiqamətlərindən birinin ölkə müstəqilliyinin qorunmasının təşkil etməsi*<br>*b. Heydər Əliyev irsinin davamçısı olması*<br>*c. Rusiya və İranla ilk əlaqələrin qurulması* | *a. Azərbaycanın "Avroviziya" mahnı müsabiqəsində qalib gəlməsi*<br>*b. İşğalçı erməni ordusunun məğlub edilməsi*<br>*c. Milli Məclisin deputatı olaraq fəaliyyət göstərməsi* |

# TDV BAKI TÜRK LİSEYİNİN İLLƏRƏ GÖRƏ QƏBUL UĞURLARI

## 2001 2022

- 700: 19
- 600+ bal: 878
- Məzun sayı: 1896
- Qızıl medal: 134
- Ölkə birincisi: 33
- Prezident təqaüdçüsü: 878

## 2022

- 2 — 300 BAL (*Buraxılış IX sinif*)
- 1 — 400 BAL (Qəbul)
- 33 — 650 - 700 BAL
- 33 — 600 - 650 BAL
- 66 — 600 - 700 BAL
- 5 — Qızıl Medal
- 1 — 394 BAL (*Ölkə birincisi*)
- 3 — Prezident təqaüdü
- 118 — Fərqlənmə Diplomu
- 84 — Xarici ölkəyə qəbul
- 19 — YTB təqaüdü
- 93 — Fərqlənmə Diplomu (*XI sinif*)